# LDU "THE Impact Rankings 2025" də !

İyunun 18-də dünyanın nüfuzlu reytinq təşkilatlarından biri olan “Times Higher Education” (THE) agentliyi ali təhsil müəssisələrinin növbəti reytinq tədqiqatının nəticələrini - “Impact Rankings 2025” açıqlayıb.

“Azərbaycan müəllimi” xəbər verir ki, dünya universitetlərinin BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədlərinə töhfəsini qiymətləndirən tədqiqatda Azərbaycan ali təhsil müəssisələrinin sayı rekord həddə – 25-ə çatıb.

Azərbaycan üzrə ən yaxşı nəticəni Bakı Dövlət Universiteti və Xəzər Universiteti göstərib.

Beləliklə, Azərbaycan universitetlərinin beynəlxalq reytinqdəki sıralaması aşağıdakı kimidir.

1. 401-600 Bakı Dövlət Universiteti
2. 401-600 Xəzər Universiteti

3. 801-1000 Azərbaycan Dövlət İqtisad Universiteti
4. 801-1000 Bakı Ali Neft Məktəbi

5. 1001-1500 Azərbaycan Tibb Universiteti
6. 1001-1500 Azərbaycan Dövlət Aqrar Universiteti
7. 1001-1500 Lənkəran Dövlət Universiteti
8. 1001-1500 Qərbi Kaspi Universiteti

9. 1501+ Azərbaycan İdman Akademiyası
10. 1501+ Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
11. 1501+ Azərbaycan Dövlət Pedaqoji Universiteti
12. 1501+ Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
13. 1501+ Azərbaycan Dövlət Texniki Universiteti
14. 1501+ Azərbaycan Texnologiya Universiteti
15. 1501+ Azərbaycan Turizm və Menecment Universiteti
16. 1501+ Azərbaycan Memarlıq və İnşaat Universiteti
17. 1501+ Azərbaycan Dillər Universiteti
18. 1501+ Bakı Musiqi Akademiyası
19. 1501+ Bakı Mühəndislik Universiteti
20. 1501+ Bakı Avrasiya Universiteti
21. 1501+ Bakı Slavyan Universiteti
22. 1501+ Gəncə Dövlət Universiteti
23. 1501+ Mingəçevir Dövlət Universiteti
24. 1501+ Naxçıvan Dövlət Universiteti
25. 1501+ Sumqayıt Dövlət Universiteti

Qeyd edək ki, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət Aqrar Universiteti, Lənkəran Dövlət Universiteti, Azərbaycan İdman Akademiyası, Azərbaycan Texnologiya Universiteti, Bakı

Mühəndislik Universiteti, Bakı Slavyan Universiteti və Mingəçevir Dövlət Universiteti ilk dəfə reytinqdə yer alır.

Məlumat üçün bildirək ki, “THE Impact Rankings” reytinq siyahısı THE tərəfindən hazırlanıb və BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri əsasında dünyanın ali təhsil müəssisələrinin sosial, iqtisadi və ekoloji sahələrdəki töhfəsini ölçən qlobal reytinq sistemidir. Bu reytinq universitetlərin tədqiqat fəaliyyəti, idarəetmə siyasətləri, sosial təsiri və ictimai öhdəliklərini obyektiv meyarlarla qiymətləndirməklə onların dayanıqlı inkişafa verdiyi dəstəyi əks etdirir.
Reytinqin nəticələri Azərbaycan universitetlərinin qlobal səviyyədə artan nüfuzunu və Dayanıqlı İnkişaf Məqsədlərinə sadiqliyini nümayiş etdirir.